**Nəsiman Yaqublu**

MƏHƏMMƏD
ƏMİN
RƏSULZADƏ
140

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ MƏTBUAT HAQQINDA

qanun nəşriyyatı

**Nəsiman Yaqublu**
**MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ MƏTBUAT HAQQINDA**
Bakı, Qanun Nəşriyyatı, 2024, 344 səh.

Ölçü: 145x210 mm
Cild: yumşaq
Çapa imzalandı: 15.01.2024

| | |
|---|---|
| Rəyçilər: | Cahangir Məmmədli, *filologiya elmləri doktoru, professor* |
| | Boran Əziz, *Tarix üzrə fəlsəfə doktoru, dosent* |
| Transliterasiya redaktoru: | Samir Xalidoğlu |
| Redaktor: | İradə Quliyeva |
| Korrektor: | Əyyar Tahir |
| Yığıcı: | Nəzakət Muradova |
| Mətn dizaynı: | Rahilə Şamil |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-866-4

© Qanun Nəşriyyatı, 2024
© Nəsiman Yaqublu, 2024

Kitab Azərbaycanın görkəmli dövlət xadimi M.Ə.Rəsulzadənin mətbuat haqqında yazılarının tədqiqi haqqındadır.

Kitabda M.Ə.Rəsulzadənin mətbuat haqqında olan 50-dən çox yazısı da oxuculara təqdim edilib.

M.Ə.Rəsulzadənin mətbuat haqqında olan yazıları və fikirləri bu günümüz üçün də aktualdır. Kitab humanitar elmlər sahəsində çalışanlar, mediada fəaliyyət göstərən jurnalistlər və jurnalistika fakültəsində təhsil alan tələbələr üçün faydalı vəsaitdir.

# İÇİNDƏKİLƏR

Məhəmməd Əmin Rəsulzadənin mətbuat yazıları ................. 7
«İrşad», «Təkamül», «Tərəqqi» qəzetindəki yazılar ............... 35
«İrani–nov» qəzetindəki yazılar............................................ 73
«İqbal», «Yeni İqbal», «Açıq söz», «İstiqlal»
qəzetindəki yazılar ............................................................ 105
Azərbaycan Parlamentində M.Ə.Rəsulzadənin
“Mətbuat Nizamnaməsi» haqqında qanun layihəsinin
müzakirəsində çıxışı........................................................... 141
Mühacirətdəki yazıları: «Yeni Qafqasiya», «Azəri Türk»,
«Odlu Yurd» jurnalı............................................................ 145
Şəxsi məktublarda, yazışmalarda mətbuat problemi ............ 214
Redaktorluğu və fəallığı ilə nəşr edilən mətbuat orqanları .... 229
Ədəbiyyat ........................................................................... 233
İzahlar................................................................................ 238
Şəxslər ............................................................................... 244
Əlavələr .............................................................................. 248
“Mətbuat Nizamnaməsi”...................................................... 256
Rus dilində yazılar ............................................................... 262
İngilis dilində yazılar ........................................................... 300
Müəllifin M.Ə.Rəsulzadə irsi İlə bağlı kitabları ..................... 323
Sənədlər ............................................................................. 325

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN MƏTBUAT YAZILARI

M.Ə.Rəsulzadənin ilk mətbu yazısı 1903-cü il mayın 2-də Tiflisdə çıxan «Şərqi-Rus» qəzetində çap olunub. «Öz müxbirlərimizdən. Bakı» başlıqlı ilk yazıda M.Ə.Rəsulzadə «Şərqi-Rus» qəzetinin nəşrini alqışlayır və qeyd edir: «Şükr və min dəfə şükr! Ki biz Qafqaz müsəlmanları da bir qəzet sahibi olduq».

M.Ə.Rəsulzadə ilk yazısında elmin, təhsilin, məktəbin vacibliyinə toxunaraq yazırdı: «Qafqaz Müsəlman əhalisindən ümumi və Bakı əhlindən xüsusi təvəqqe edirəm ki, öz uşaqlarından balaca olan vaxtda elm və tərbiyə kəsb etməkdən başqa bir şey mənzur (məqsəd, niyyət) tutmasınlar. Məsələn, hər kəsin ki qüvvəsi çatır uşağını məktəbə qoymağa, məbada-məbada palçıxçı, dükan şagirdi və qeyrə və qeyrəyə razı olsun».[1]

**1903-cü ilin 14 mayında isə qəzetin 19-cu sayında** «Şərqi-Rus» qəzetində əmisi oğlu və yaxın mücadilə dostu M.Ə.Rəsuloğlu ilə birlikdə «Hümmət və qeyrət vaxtıdır» məqaləsi çap edilir. Bu yazıda elm öyrənməyin vacibliyi xüsusi olaraq belə vurğulanır: «Bu vaxta bizə lazım və vacibdir ki, hümmət edib, elm öyrənməyə və öyrətməyə və öyrətdirməyə səy və kişiş qılaq. Elmsiz heç bir nöqsanımız götürülməyəcəkdir».

---

[1] "Şərqi-Rus" qəzeti, 1903, №14

M.Ə.Rəsulzadə yazırdı: «Pəs hümmət və qeyrət vaxtıdır. İttifaq edib bir məktəbxanə bina eləyin ki, ona da ümumi ruhani deyilə. Hansı ki, o məktəbdən çıxan üləmadan molla və axundlar təyini lazım olacaqdır».[1]

M.Ə.Rəsulzadə qəzetin 1903-cü ildəki 20-ci sayında çap olunan digər mətbu yazısında, «Müxəmməs» şeirində isə elmin, savadlanmanın vacibliyi probleminə toxunurdu.

M.Ə.Rəsulzadənin bu dövrdə mətbu fəaliyyətinə aid olan 1903-cü ildəki yazıları diqqətə layiqdir. Bu yazıları ilə o, gələcəkdə ciddi mübarizə edəcəyi rus istibdadı rejiminə qarşı barışmazlığının əsasını qoyurdu.

Mövcud mühitə, rus istibdad rejiminə qarşı mübarizəsi baxımından M.Ə.Rəsulzadənin ilkin dövr fəaliyyətini və mətbu yazılarını öyrənmək əhəmiyyətlidir. «Şərqi-Rus», «Hümmət», «Dəvət – Qoç», «Təkamül», «İrşad» və digər mətbuat orqanlarında M.Ə.Rəsulzadənin mövcud rejim əleyhinə onlarla yazısı çap olunub.

M.Ə.Rəsulzadənin o zaman yaratdığı «Müsəlman Gənclik Təşkilatı»nın təşviqat-təbliğat işində «Hümmət» qəzeti mühüm rol oynamışdı. 1904-cü ilin axırlarından 1905-ci ilin fevralınadək bir neçə yüz nüsxə tirajla nəşr edilən qəzetin 5-6 sayı çıxmışdı.

M.Ə.Rəsulzadə «Hümmət»in Qafqazda türk (Azərbaycan) mətbuatı arasında ilk partiya orqanı olduğunu göstərmişdir. «Hümmət»in həmin illərdə nəşr olunmuş nüsxələrindən yalnız birində – 3-cü sayında (1905-ci il) M.Ə.Rəsulzadənin bir məqaləsi hələlik tapılmışdır. Həmin məqalə 1917-ci ildə «Açıq söz» qəzetinin 5 iyul tarixli sayında (№ 513) çap edilmişdir.[2]

Qeyd edək ki, Azərbaycanın görkəmli dövlət xadimi M.Ə.Rəsulzadə mətbuata böyük önəm verirdi. Onun mətbuat haqqında olan yazılarına 1906-cı ildən rast gəlirik. M.Ə.Rəsulzadənin bir-

[1] M.Ə.Rəsulzadə. Əsərləri, I c. (1903-1909). B., Azərnəşr, 1992, s. 17.
[2] "Açıq söz" qəzeti, iyul 1917, № 513

başa mətbuatla bağlı olan yazısı belə adlanır: **«Mocibi heyrət»** *(«Heyrətə səbəb»).*

M.Ə.Rəsulzadə bu yazısında qəzetlər arasında olan «mübahisəni, mücadiləni» əslində bir mübarizə yolu adlandıraraq yazırdı:

«Doğrudur, qəzetlər arasında hər bir vaxt, hər bir zaman mübahisə, mücadilə, mübarizə olur. Lakin bu bəhs, bu cidal, xəncər və tapança davası olmayıb müsadimeyi-əfkar *(ictimai fikir),* mübarizeyi-təsəvvürdən ibarətdir və bu toqquşma və vuruşma qəbih (pis) olmayıb, bəlkə ən gözəl və ən müstəhsən *(bəyənilən)* mübarizə təriqidir *(yoludur).*

...Şəhərimizdə bir qəzetə nəşr edilərkən millətimizə «həyat» bağışlandı. Həyat olandan sonra irşad lazımeyi-mədəniyyət olduğundan «İrşad»ın zühuru mətlubi-təbii olmazmı?»[1]

M.Ə.Rəsulzadə mətbuat haqqında olan ikinci yazısını belə adlandırır: **«Yeni qəzetə».** Qeyd edir ki, qəzetin başlıca məsləki – hürriyyətsevərlikdir, yəni azadlıqsevər olmalıdır. Məqalədə belə maraqlı fikirlər var: «Qəzetin məsləki – hürriyyətpərvərlikdir... Doğruya – doğru, əyriyə – əyri demək «Vətən xadimi»nin borcu olduğu kimi aləmi-islamiyyətdə cərəyan edən əhval və vəqayedə zaman, məkanın müdafiəsinə görə acı-acı tənqid etmək məsləkimiz müqtəziyyatındadır *(vacibdir)».*[2]

M.Ə.Rəsulzadənin mətbuat haqqında yazıları yalnız Azərbaycanda nəşr edilən qəzet və jurnallarla bağlı deyil, eyni zamanda Çar Rusiyasının digər bölgələrində çap olunan nəşr orqanları haqqında da bilgilər verir.

Bu mənada onun Kazan şəhərində çıxan **«Tan Yuldızi»** ***(«Dan Ulduzu»)*** **qəzeti haqqında** fikirləri maraqlıdır. O, yazırdı:

«Kazan şəhərində çıxan «Tan Yuldızi» qəzetəsinin əvvəlinci və ikinci nömrələrini aldıq. Qəzetənin şiyveyi-təhririyyəsi qafqazya-

---

[1] "İrşad"qəzeti, yanvar 1906, № 18

[2] "İrşad", 9 may 1906, № 108

lılar anlayacaq bir dildə deyilsə də, mündəricartı o qədər maraqlı, məsləki o qədər müstəqimdir *(doğru, sağlam)* ki, hər bir sahibi-zövq hıqqana-hıqqana olsa da onu oxuyub məzmunundan xəbərdar olacaqdır. Arzu edilirdi ki, ədəbiyyatımızın üfüqündə bu tövr yulduzlar çoxlaşıb «Tan Yuldızi»nın məsləki aramızda bərqərar olaydı».[1]

M.Ə.Rəsulzadənin 1906-cı ildə nəşr edilən, sayca dördüncü məqaləsinin adı **«Yeni inqilab xadimidir».** O, yazır: «inqilab ilə əksinqilab» arasında olan ziddiyyətlər, «vuruşub çəkilmələr» daha çox mətbuatda müşahidə edilir. M.Ə.Rəsulzadə bu haqda olan fikirlərini belə təqdim edir:

«İnqilab ilə əksinqilab həmişə vuruşub çəkilməkdədir. Bu vuruşmanın, bu çəkişmənin asari aləmi-mətbuatda pək yaxşı müşahidə olunur. Bu gün bir qəzetə nəşr olunur. İnqilab tərəfdən isə həqiqətsevər, ədalət tələb edər isə, sabah bağlanar. Əvəzində surətini dəyişib, özgə bir surətdə nəşr edər. O da bağlanar, təbid *(uzaqlaşdırma)* edilər. Nəhayət, olduğu şəhərdə çap olunmağa qoyulmaz, özgə şəhərdə çap olunar. Çap olunar da dediyini deyər, yazdığını yazar, nəhayət, şiddətli də yazar. Xülasə, heç bir mümaniət *(mane olmaq)* və işğaldan çəkinməyib, kəlami-hümmət və qeyrət ilə inqilab əksinqilab ilə boğuşar, savaşar».[2]

**«İrşad» qəzetinin** 1906-cı ildəki avqust sayında M.Ə.Rəsulzadə «Mətbuat azad olmalıdır» fikrini daha da kəskinləşdirir:

«Madam ki mətbuat hökumət amirlərinin təhti-təftiş və nəzarətindədir, madam ki qələm azad deyil, xanlar, vəzirlər hər nə istəsələr eləyəcəklər – seçkinin üsulunu bildirmək və hökumət amirlərinin xəyanətini kəşf etmək üçün lazımdır ki, mətbuat azad olub, hər bir təcavüzdən məsun (toxunulmaz) qalsın».[3]

---

[1] "İrşad", 1 iyun 1906, № 128
[2] "İrşad", 14 iyun 1906, № 139
[3] "İrşad", 8 avqust 1906, №186

M.Ə.Rəsulzadənin təqdimatında mətbuata münasibət həm də müxtəlifdir. Yəni onun uşaq mətbuatı haqqında fikirləri xeyli fərqlidir, maraqlı məlumatlarla zəngindir. Müəllif **«Dəbistan»** jurnalı haqqında yazır:

«Məlum olduğu üzrə şəhərimizdə uşaqlara məxsus ayda iki dəfə nəşr olunan «Dəbistan» jurnalı 7 aydır ki, nəşr olunur. Demək olar ki, «Dəbistan» Rusiyada, bəlkə də aləmi-islamda əvvəlinci jurnaldır. Doğrudur, Türkiyədə «Çocuqlara məxsus qəzetə» çıxır, lakin Sultan Həmid tərzi-idarəsinin senzurundan keçən bu jurnal boş müqəvvadan ibarət qalmışdır...

Lakin özlüyündə tək-tənha olan bu jurnal 25 milyon Rusiya müsəlmanı demirəm, beş milyon Qafqaz müsəlmanı arasında olsun necə gedir? İnsan xəyal edir ki, iki həftədə bir dəfə çıxan jurnal nədir ki, o da yeriməsin, o da xərcini ödəməsin?

Lakin heyhat, heyhat! Müsəlman jurnalı olduğu üçün bu fikrin əksini görürük.

«Dəbistan»da haləti-nəzidədir. Biçarə müdir həmi yazıçılıq edir, həmi təshih qılır, həmi poçta gedir, həmi abunəçilərin adreslərini yazır, həmi də öz cibindən əlavə olaraq zərər qoyur.

İştə baxın, qardaşlar, insaf eləyin, bu rəvamıdır?»[1]

M.Ə.Rəsulzadənin mətbuatla əlaqəsi fikirlərində burada çalışan texniki işçilərə, mürəttiblərə də diqqət edilir, onların savad və mədəniyyətləri önə çəkilir:

«Ümumən hər tayfanın arasında mürəttiblər qeyri fəhlələrə nisbətən «ziyalı fəhlə» hesab olunurlar. Yəni qeyri-bisavad fəhlələrə nisbətən mürəttiblər öz savadları cəhətinə tərəqqiyə və mədəniyyətə artıq mail olurlar.

Hər bir vilayətdə mürəttiblər öz hüquqlarını tələb etməkdə, ittifaqlar və cəmiyyətlər təşkil etməkdə pişrov olaraq qeyri-bisavad

[1] "İrşad", 7 dekabr 1906, №280